Respublika.- 2021.- 29 aprel.- S.6.

# AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN XATİRƏSİ ƏZİZ TUTULUR

**Yevlax Şəhər İcra Hakimiyyəti tərəfindən Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 98-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilmişdir. Tədbir iştirakçıları Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş filmə baxdılar. Tədbirdə Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humantiar məsələlər şöbəsinin müdiri Elnarə Əzizova bildirdi ki, gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq-alim Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca gözlərimiz önündə Tanrının ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi böyük insanın obrazı canlanır.**

Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. Zərifə xanım ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, Prezidentimiz cənab İlham Əliyevin anasıdır. Dünya oftalmologiya elminin digər tanınmış simaları da onu öz sahəsinin məşhur alimi hesab etmiş, yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışlar. Akademik A.Brovkina onu “nəciblik və mənəvi paklıq timsalı” adlandırmışdır.



Sonra Milli Məclisin deputatı, YAP Yevlax rayon təşkilatının sədri İlham Məmmədov bildirdi ki, Zərifə xanım Əliyeva həkim kimi gözlərə nur verirdi. Onun yaşadığı ömrün özü bir işıq mücəssəməsidir. Bu işıqdan hamıya pay çatırdı: ailəsinə, övladlarına, əhatəsində olanlara, gözünün nurunu itirmiş insanlara. Azərbaycan tibb elmində silinməz izlər qoymuş, səhiyyəmizə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanı xatırlayanda həm də göz önündə mənəvi kamilliyinin ən uca zirvəsində dayanan görkəmli elm fədaisinin işıqlı çöhrəsi canlanır. Yüksək intellekt və mədəniyyət, dərin bilik, insanpərvərlik, Vətənə məhəbbət və xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın portretini tamamlayan əsas cizgilərdir. Ümummilli lider Heydər Əliyevin öz ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbət duyğuları insanı riqqətə gətirəcək qədər təsirlidir. Görünür, ayrılıqlar kimi, vüsallar da tale yazısıdır. Bir-birinə məhəbbətlə dolu iki ürək on səkkiz ildən sonra Fəxri xiyabanda əbədi qovuşdu.

Həkim oftalmoloq Məhəmməd Qorçuyev, şəhər 3 nömrəli tam orta məktəbin direktoru Sevda Səmədova, Yevlax Şəhər Heydər Əliyev Mərkəzinin direktoru Aygün Qasımova qeyd etdilər ki, bir-birindən dəyərli 150-dən çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin və dərs vəsaitlərinin müəllifi olan, Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan Zərifə Əliyevanın açdığı şərəfli yol ildən-ilə genişlənir, zəngin irsi, pedaqoji fəaliyyəti dönə-dönə araşdırılır, öyrənilir və neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Təbabətdə öz dəst-xətti olan novator alimin oftalmologiyanın müxtəlif sahələrində yorulmadan apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər müasir dövrdə də aktuallığını itirməyib. Böyük alimin əziz xatirəsi xalqımızın qəlbində yaşayır, nurlu obrazı bu gün də davamçılarının yolunu işıqlandırır.

**Zabit XƏLİLOV,**
**“Respublika”.**